# "Şəhid qardaşlar" kitabı

**Odlar diyarı, mərdlər yurdu deyilən Azərbaycan yerləşdiyi coğrafi mövqeyə görə daim qəsbkarlar tərəfindən təcavüzə məruz qalıb. Bu hətta XX əsrə kimi davam edib. Keçən əsrin 90-cı illərində bədnam qonşularımız tərəfindən işğal olunan, 30 illik həsrətdə qalan Qarabağımız 44 günlük müharibədə qəhrəman oğullarımızın sayəsində işğaldan azad edildi.**

## XIII yazı

*(Əvvəli ötən saylarımızda)*

**Müəllimləri şəhid şagirdləri haqqında**

Bu rəşadətli oğulların cərgəsində mənim rəhbərlik etdiyim məktəbin şagirləri olan Cavid və Çingiz Məmmədov qardaşları da var.

Azərbaycan həmişə qəhrəman oğulları ilə fəxr edib.

Hələ məktəbdə oxuduqları illərdə şagird yoldaşları arasında seçilən və ictimai işlərindəki fəaliyyətləri ilə fərqlənən bu qardaşlarda vətənpərvərlik hissinin güclü olduğu müşahidə olunmaqda idi.

Məktəb özfəaliyyət dərnəklərində vətən haqqında şeirlər söyləyirdilər.

Hərbi hazırlıq dərslərində, keçirilən hərbi-idman oyunlarında fəal iştirak edirdilər.

Cavid və Çingiz xeyli müddət idi ki, hərbçi kimi xidmət göstərirdilər. Vətənin üstünü qara buludlar alanda hər iki qardaş döyüşün önündə idi. Müharibənin elə ilk günündə xoş xəbərləri gəlirdi.

2020-ci il oktyabrın 3-də gecə icra nümayəndəliyinə verilən qara xəbər gecənin qaranlığını bir az da artırdı. Bu xəbəri ailəyə necə çatdırmalı? Kənd icra nümayəndəsi Altay Əmirov, şəhid qardaşların qohumu Rafiq Əliyev və mən - məktəbin keçmiş direktoru, kənd ağsaqqalları şurasının sədri - çox götür-qoy etdikdən sonra səhər şəhid qardaşların evinə getdik. Ailə hələ yatırdı. Təkcə şəhidlərin atası İlham Məmmədov oyanmışdı. Cavidin yaralandığı xəbəri yayıldığından, o bizi görən kimi işin nə yerdə olduğunu anlayıb diz üstə çökdü. "Vayyy. Evimiz yıxılıb" deyə həyat yoldaşını harayladı. Səs-küy ətrafı bürüdü. Bütün kənd ilk şəhidini qarşılamağa yığışdı. Rayon mərkəzindən, yaxın kəndlərdən adamlar gəlməyə başladı.

Yeniabad kəndi ilk şəhidini torpağa tapşıracaqdı.

Uşaqlıqdan tanıdığım, gözümüzün önündə böyüyən Cavid və Çingizin şəhid olmaları müəllimləri olaraq mənə nə qədər ağır təsir etsə də, qürurlandım. Mənim vətənpərvər, qeyrətli şagirdlərim vətən, torpaq yolunda şəhid oldular. Bu böyük qələbədə onların da payı var.

Cavidlə Çingiz artıq təkcə valideynlərinin deyil, hamımızın, Azərbaycanın övladlarıdır. Fəxrimizdilər.

Valideynlərinə səbr diləyirəm.

Allahdan bütün şəhidlərimizə rəhmət diləyirəm.

Ruhları şad olsun.

**Şəhid Cavid və Çingizin məktəb direktoru, Respublikanın əməkdar müəllimi Elman İsmayılov**

1975-ci ildə universiteti bitirib Şəmkir rayon Yeniabad kənd R.Əliyev adına orta məktəbində dil-ədəbiyyat müəllimi kimi fəaliyyətə başlamışam.

Müəllim ürəyini al-əlvan güllərlə bəzədilmiş çəmənə bənzədərdim. Bu çəməndə aləlvan çiçəklərin hərəsinin öz rəngi, öz ətri var. Bu çiçəklər mənim sevimli şagirdlərimdir. Bu şagirdlərin hər birinin özünəməxsus gözəlliyi, sadəliyi, inceliyi, uzaqgörənliyi, uşaq dünyası var. Bunları oxumaq, bunları kəşf etmək, ortaya çıxartmaq biz müəllimlərə həvalə olunub. Hər bir şagird ali təhsil ala bilməz, amma hər bir şagird vətəndaş olmağa borcludur.

Dərslərimizi, tədbirlərimizi sədası başladığımız himnimizin müəllifi, bizim həmyerlimiz Əhməd Cavad gözəl Şəmkirdən olduğuna görə bizə daha doğmadır. Himnimizdə Azərbaycana məhəbbət, sevgi, sədaqət hissi o qədər güclü, o qədər səmimi verilib ki, ruhumuza işləyib.

Heç yadımdan çıxmır, bütün şagirdlər kimi boyu bir az bəstə olan Çingiz adlı qara göz gözəl bir şagirdimiz orta sırada birinci partada əyləşirdi. Onun gözəl badamı qara gözləri böyük bir həsrət hissi ilə baxan gözləri xatırladırdı. Ədəbiyyatdan şifahi xalq ədəbiyyatı mövzusunu keçib, bayatılar bölməsini uşaqlara mənimsətməyə çalışırdım. Əvvəlcə dərsə giriş məqsədilə uşaqlardan kimin bayatı deyə biləcəyini soruşdum. Hər kəs vətən, yurd haqqında, ümumiyyətlə, hərə bildiyi bir bayatını deyirdi. Mənim həmişə diqqətimdə olan balaca boylu Çingiz əlini qaldırdı. Dedim: "Buyur, ay Çingiz, görüm nə deyirsən". Çingiz bir anlıq gözünü mənə zilləyib:

*Vətən gözdür, biz kiprik*
*Gözümüzün keşiyini çəkirik - dedi.*

Bu şirin bayatı sanki onun dilindən süzülüb gəldiyindən bir az kövrəldim. Yaxınlaşıb onun qara tellərini sığalladım. Uzun kipriklərini qaldırıb üzümə baxdı. Elə bildi ki, mən ona artıq bir söz deyə bilərəm. Məndən nəsə gözlədi. Dedim: "Ən gözəl bayatını sən dedin, ay Çingiz".

Əslində bu bayatı deyildi, amma Çingiz onu hardansa əzbərləmişdi. Bundan sonra mən Çingizi xeyri-adi ürəyə sahib şagird kimi qəbul elədim.

Bir gün uşaqlar nəsə mübahisə edirdilər. Yaxınlaşıb soruşdum ki, nədir, nə olub? Niyə mübahisə edirsiniz? Dedilər ki, ekskursiyaya getmək istəyik, amma sinfin bəzi uşaqları gəzməyə getmək istəmirlər. Biz də istəyirik hamımız gedək. Uşaqlarla söhbət etdim, soruşdum ki, hara getmək istəyirsiz? Biri yaxınlıqdakı Şəmkir çayının sağ sahilində Şəmkir qalası var, ora getməyi, başqası Nizami məqbərəsinə getməyi, ...




hərəsi bir təklif irəli sürdü. Dedim, yaxşı onda belə edək, gedək Nizami məqbərəsinə baxaq, sonra uşaq meydançalarına gedək, siz də gəzin, oynayın.

Hamı razılaşdı, ekskursiyaya getdik. Nizami məqbərəsində hərə öz şeirini dedi, Fitnənin heykəlini onlara göstərdim. Ümumi tanışlıqdan sonra gəldik Gəncədəki "Xan bağı"na. Bir az gəzəndən sonra karusel deyilən yerə gəldik. Çingiz də uşaqlarla bərabər karuselə mindi. Düşəndən sonra Çingiz dedi ki, müəllimə başım fırlanır. Onu bağrıma basdım ki, başının hərlənməsi kəssin. Gözünü yumdu, bir az keçəndən sonra başının fırlanması kəsdi. Dedim ki, indi başqa karuselə gedək. O məndən ayrılmaq istəmirdi. Əlimdən yapışıb: "Müəllimə, mən dünyada iki adamı çox istəyirəm. Bir anamı, bir sizi". Üzünə baxdım. Dedim: "Ay Çingiz, bu dünyada hər kəs üçün anadan da, müəllimdən də əziz bir məfhum var, o da Vətəndir! Əgər vətənimiz kiminsə əsarətində olsa, bizə heç kim güvənməz, bizə heç kim saygı göstərməz. Hamımızın bir anası var, o da vətəndi. Hamımız bu ölkənin vətəndaşıyıq. Birinci növbədə vətəni, sonra ananı, sonra müəllimi sevməlisiz. Hər şeyin başında vətən durur". Çingiz üzümə baxdı. O gündən Çingiz mənə bağlandı. O qədər bağlandı ki, hər dəfə dəhlizdə məni qarşılayır, sinfin qapısına kimi mənimlə bərabər gedirdi. Hərdən sinfin jurnalını götürməyi də məndən istəyirdi.

O qədər gözəl balaydı. Bəlkə də mənim vətən haqqında dediyim sözlərdən idi, bəlkə də ailədən idi...

Mən Çingizin atasına da dərs demişəm. Çox sakit insandı. Uşaqlıqda da sakit idi. Elə gözəl insanın uşağı da məhz belə olmalıydı.

Təsəvvür edin, Çingizin dəfni, bütün kəndin ağlayan günü hamı atası İlhama baş sağlığı verdiyi anda onun əlində papiros vardı. Mən baş sağlığı verməyə dilim təpiyə-təpiyə, dodağın əsə-əsə yaxınlaşanda İlham papirosu yerə atdı ki, müəlliməm gəlir. Bax, belə ailənin uşağı Çingiz, Cavid kimi olmalıydı.

Cavidə dərs deməmişdim, amma Cavidin etikası, davranışı o qədər gözəl, o qədər sanballı, o qədər ürəyə yatan idi ki, mən deyərdim bunlar bütün şagirdlərimin, sanki gözü idi.

Ən çox sevdiyi ata-anası, qəlbən, ürəklə bağlandığı sevgilisi, səmimi, hamıdan yüksəkdə bildikləri övladları və hamımız üçün canlarını vətənə qurban verib, qanlarını torpağa çiçək əvəzinə səpən oğullardı Çingizlə Cavid.

Allah hər ikisinə rəhmət eləsin. Cavidlə Çingiz kimi minlərlə övlad böyüyür. Hər birində Vətən sevgisi, ana məhəbbəti, övlad istəyi nə qədər güclü, nə qədər böyük... Biz müəllimlərin də əsas amalı belə vətənpərvər şagirdlər böyütməkdir.

Vətən nədir? Vətən hardan başlayır? Vətən niyə bizə bu qədər əzizdir? Biz bu sualların cavablarını şagirdlərə aşlamalıyıq. Onları vətən sevgisi ilə böyütməliyik. Onlar vətəni qorumaq eşqi ilə yaşamalıdırlar.

Çingizdə vətən eşqi nə qədər güclüdürsə, ona "qardaşının dəfnində iştirak et" deyəndə, Çingiz çox böyük mətinliklə, iradəylə deyib ki, onu dəfn etməyə kənddə çox adam var. Mən vətənin müdafiəsinə gedirəm. Yenidən döyüşə atılıb və döyüşərək Azərbaycanın qəhrəman şəhidlərindən birinə çevrilib.

Bunlar bizim fəxrimizdilər.

Şəhidlərin qanı tökülən yerdə gül-çiçəklər bitir.

Cavid də, Çingiz də təkcə Faya ananın, İlham atanın yox, bizim hamımızın övladıdır.

Allah Qarabağ uğrunda şəhid olanlarımıza rəhmət eləsin! Ruhları şad olsun!

Onlar Azərbaycanın heç vaxt unudulmayan, heç vaxt yaddan çıxmayan, şücaətləri ilə tarix yazan övladlarıdır. Azərbaycan belə övladlarla fəxr edir.

Mən də fəxr edirəm ki, belə mərd, vətənsevər şagirlərim olub. Belə şagirlərim olduğu üçün qürur duyuram. Və bu gün onlar haqqında ürəkdolusu danışıram. Çox sevinirəm ki, onların həyatında az da olsa mənim də rolum var. Qoy onların valideynləri fəxr eləsinlər ki, Vətən üçün belə övladlar böyüdüblər. Artıq bütün Azərbaycanın övladı şəhidlərimizə bir daha Allahdan rəhmət, valideynlərinə səbr diləyirəm.

Vətən sağ olsun!

Şəhid Cavid və Çingiz Məmmədov qardaşlarının müəllimi Həsənova Gülafət

*(ardı var)*

***Rəfail TAĞIZADƏ***